# Kredo

TARİX İNSANIN ƏDİBİ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimaisiyasi, publisistik qəzet №11 (1267) 04 aprel 2025-ci il Qiymәti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır


# Təyyar SALAMOĞLU - 65

## BİR ALİMİN HƏYATINDAN FRAQMENTLƏR, YAXUD ƏDƏBİYYATŞÜNASLIĞIMIZIN TƏYYAR SALAMOĞLU FENOMENİ



*"Təyyar Salamoğlunun konsepsiyasında birlik - yəni milli bütövlük, Azərbaycanın ruhunu - azərbaycançılığı qorumaq əsas məqsəd kimi qabarıqdır".*

Əli Rza XƏLƏFLİ,
şair-publisist, tənqidçi


*Qüdrət UMUDLU,*
*ADPU-nun Ədəbiyyat kafedrasının dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*

*qumudov1957@gmail.com*
*<mailto:qumudov1957@gmail.com>*


Mənalı, zəngin bir insan həyatı və fəaliyyəti ilə tanış olmaq, maraqlı, əhəmiyyətli şeylər öyrənə biləcəyin gərəkli bir kitab oxumağa, yaxud ibrətamiz bir filmə baxmağa bənzər. Həssas oxucu (və ya tamaşaçı) diqqət yetirdiyi əsərdən nələrisə götürər, ondan faydalanar, aldığı təsirdən bir qədər də zənginləşər...

Haqqında söz açacağımız, ömür kitabının bəzi səhifələrini vərəqləyəcəyimiz şəxs görkəmli ədəbiyyatşünas-alim, tanınmış tənqidçi, 65 illik ömrünün 44 ilini xalqının təhsilinə, filoloq mütəxəssislər, pedaqoji kadrlar yetirməyə həsr etmiş professor Təyyar Salamoğludur. Görkəmli alim, ustad pedaqoq haqqında yazmaq həm şərəfli, həm də məsuliyyətlidir, - desək, səmimi etiraf olar. Şərəflidir ona görə ki, azərbaycançılıq idealına xidmət edən nüfuzlu bir alim, həyatını yalnız xeyir əmələ həsr etmiş, tələbələrinin dərin hörmət və ehtiram bəslədiyi, dostlarının və həmkarlarının həmişə güvəndiyi şəxsiyyət, qırx ildən artıq bir zaman ərzində tanıdığın, nələrə qadir olduğunu, neçə-neçə fundamental elmi əsərə imza atdığını bildiyin, gözlərin önündə keçən elmi-pedaqoji fəaliyyətinə yaxşı bələd olduğun, çoxsaylı sanballı məqalələrinin, kitablarının ilk oxucularından biri olduğun dostun və həmkarın haqqında yazırsan. Bu sarıdan duyduğum qürur hissini təsəvvür etmək olar... Məsuliyyətlidir ona görə ki, bu böyük alimin gördüyü işlərin, qələmə aldığı əsərlərin hər biri üzərinə işıq salmaq, onlar barədə söz açmaq kiçik bir yazıda imkansız görünür. Nədən ki, T.Salamoğlunun elmi yaradıcılığı mühüm tədqiqat obyektidir və haqqında dissertasiyalar yazılacaq qədər geniş və əhatəlidir.

Elmi - pedaqoji fəaliyyəti ilə əlaqədar bəzi şeyləri deməzdən, yaradıcılığı haqqında qısaca da olsa söz açmazdan əvvəl Təyyar müəllimlə bağlı bir həyat faktını, şahidi olduğum, üstündən onilliklər ötməsinə baxmayaraq yaddaşımdan silinməyən bir əhvalatı xatırlatmaq istəyirəm. 1984-cü ilin may-iyun ayları idi (dəqiq tarix yadımda deyil). Azərbaycan Dövlət Pedaqoji İnstitutunda aspiranturaya yaz qəbulu imtahanları gedirdi. Mən də folklorşünaslıq ixtisasına sənəd vermiş və ixtisas imtahanını vermək üçün instituta gəlmişdim. Qəbul imtahanları elmi işlər üzrə prorektorun otağında keçirilirdi. Aspirantura şöbəsi prorektorun otağından solda idi. Dəhlizdən ayrıca qapısı olmasına baxmayaraq, prorektor otağına elmi hissənin otağından, yəni aspirantura şöbəsindən də qapı var idi, şöbə əməkdaşları, eləcə də işi olan digərləri prorektorun yanına çox vaxt bu qapıdan girib-çıxırdı. Qəbula gələnlər və imtahanın gedişinə maraq göstərən aspirantlar (əvvəlki illərdə daxil olmuş müdavimlər) şöbənin qarşısında, dəhlizin pəncərələri önündə yığışmışdı. Onların arasında tanıdığım da vardı, tanımadıqlarım da...

Qəbula gələnlərdən biri, kiməsə qarışmadan bir kənarda dayanan, boyca oradakılardan daha uca, cüssəli, lakin arğac, ciddi görkəmli gənc kənd müəllimi diqqətimi daha çox cəlb edirdi. Nədənsə onu konquryentlərimdən biri sandım. Lakin yanılmışdım... Sonradan biləcəkdim ki, bu uzun digər ixtisasa görə Sabirabad rayonundan gəlib, Təyyar Cavadovdur. Az sonra "SSRİ xalqları ədəbiyyatı" ixtisasına gələnləri çağırdılar. Uzun oğlan da bu imtahana girənlər arasında içəri keçdi...

İmtahanın başlanmasından artıq iki saata yaxın vaxt keçirdi. Tələbə yoldaşım, professor Afad Qurbanovun dilçilik üzrə aspirantı Faiq Şahbazlı və tələbəlik illərindən tanıdığım, bizdən bir kurs aşağı oxumuş, pedaqogika üzrə aspirant mərhum Vəzirxan Zərbəliyevlə birlikdə dəhlizdə dayanıb söhbət edirdik. Mənim imtahanım günortadan sonra başlayacaqdı. Başlanma saatını dəqiqləşdirmək üçün dostlarla birlikdə aspirantura şöbəsinə, şöbənin müdiri Asiya xanımın yanına keçdik. Dostlar bir növ mənə himayə göstərib "bələdçilik" edirdilər. İmtahan gedən otağın geniş qapısı açıq idi. İçəridəkilərin danışığı aydınca eşidilirdi. Təcrübə baxımından mənə maraqlı gəldi... Asiya xanımdan, vaxtı dəqiqləşdirdikdən sonra, bir tərəfdə dayanıb prorektor otağında verilən cavabları dinləmək üçün icazə istədim. O da, görünür, yanımdakı yoldaşlara görə razılıq verdi.

İçəridəkilərdən biri inamla sualının cavabını danışırdı. İmtahan götürənlər "XX əsr Azərbaycan ədəbiyyatı"nın tanınmış mütəxəssisləri, görkəmli alimlər - professor Məmməd Məmmədov və professor Xeyrulla Məmmədov idi. Belə zənn etdim ki, hazırda içəridə cavab verən həmin uzun oğlandır. Ətraflı və məntiqli danışırdı. Arada müəllimlər nə isə sual verdi. Cavab gecikmədi. Uzun anındaca cavablarını verdi. Ona sonuncu suala keçməsini dedilər. Bu zaman elmi işlər üzrə prorektor, professor Kamal Hüseynov şöbəyə çıxdı. Asiya xanımdan nə barədəsə soruşdu. Otağına dönərkən gözü bizə sataşdı: "Siz niyə burada durubsunuz?" - soruşdu. Asiya xanım: - " Qulaq asırlar" - dedi. Kamal müəllim razılıq əlaməti başını yüngülcə tərpətdi və dedi:

– İmtahana belə hazırlaşarlar. - Əli ilə danışanı işarə etdi. - O birilər elə-belə cavab verdilər. Amma bu danışan hazırlıqlıdır. Adı, deyəsən Təyyardır. Hə, Təyyar Cavadov, Sabirabaddan gəlib. Zalım oğlu, elə bil, qaynamadır. "Pıq-pıq" qaynayır.



Uzun oğlan "əla" aldı. Mən o ili daxil ola bilmədim. Folklorşünaslıq ixtisasına konqruyentim Ramazan Qafarov keçdi. Daha ciddi hazırlaşıb 85-ci ilin yazında qəbul olundum. Ramazan Qafarlı, Vurğun Əyyubov, Təyyar Cavadov, Yaqub Babayev, Elman Quliyev, Mahmud Allahmanov və mən Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspirantları idik. Təyyar Salamoğlu qiyabi aspirant olduğu üçün aspiranturanı bir vaxtda bitirdik. Adı çəkilən aspirantlar - hər birimiz az ara ilə namizədlik dissertasiyalarını müdafiə edib bir müddət işsiz (əyani qurtaranlar nəzərdə tutulur) qaldıqdan sonra bizim üçün açılan elmi laboratoriyada elmi işçi kimi fəaliyyətə başladıq və bir neçə vaxtdan sonra növbə ilə kafedraya müəllim keçirildik...


*(Davamı 4-cü səhifədə)*

# BİR ALİMİN HƏYATINDAN FRAQMENTLƏR, YAXUD ƏDƏBİYYATŞÜNASLIĞIMIZIN TƏYYAR SALAMOĞLU FENOMENİ

*(Əvvəli 1-ci səhifədə)*

Bir qədər Təyyar müəllimin elmi-pedaqoji fəaliyyəti haqqında. Təyyar Salamoğlu ilə Yaqub Babayevin dissertasiya rəhbəri professor Məmməd Məmmədov idi. Bu iki gənc alimin ilk kitabı da elmi rəhbərləri M.Məmmədovla müştərək yazılmış, "Maarif" nəşriyyatı tərəfindən 1992-ci ildə çap edilmişdir. (M.Məmmədov, Y.Babayev, T.Cavadov. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı, "Maarif", 1992, 288 səh.). Kitab mündəricə və zəngin faktoloji mahiyyəti ilə mühüm əhəmiyyətə malik bir əsər olmaqla, filoloji və pedaqoji yönlü fakültələrin tələbələri, habelə uyğun sahə tədqiqatçıları üçün əvəzsiz mənbə rolunu oynayacaqdı. Orada ilk dəfə olaraq milli uşaq ədəbiyyatımızın tarixi kökləri, təşəkkülü, inkişafını şərtləndirən amillər, əsas qaynaqları, ayrıca uşaq poeziyası, uşaq nəsri, onların mövzu dairəsi, ideya-məzmun və bədii sənətkarlıq xüsusiyyətləri geniş və sistemli şəkildə araşdırılaraq oxucusunun ixtiyarına verilirdi.

Müəllimimiz professor M.Məmmədov və onun bu iki davamçısı bir neçə ildən sonra başqa bir dəyərli kitabı elmi-pedaqoji ictimaiyyətin, o cümlədən filoloq tələbələrin və məktəb yaşlı uşaqların istifadəsinə verdi. "Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası" (Bakı, "Elm" nəşriyyatı. 1998, 300 səh.) adlanan kitabda otuzdan çox maarifçi şairin uşaqlar üçün qələmə aldığı yüzdən artıq poeziya, təqribən bir o qədər müəllifin qırxa qədər uşaq nəsr nümunəsi toplanaraq tərtib edilmişdi. Bu ilk baxışda kiməsə asan görünə bilər. Lakin bu iş asan olmayıb, aylar, bəlkə də illər ərzində "iynə ilə gor qazmaq" kimi uzun, kifayət qədər diqqət və dəqiq araşdırma tələb edən, arxiv materialları, XIX əsrin ikinci yarısı, XX əsrin ilk onilliklərində nəşr edilmiş mətbuat orqanlarında fərqli əlifbalarla, daha çox əski əlifba ilə dərc edilmiş, eləcə də həmin dövrün dərsliklərinə daxil edilmiş külli miqdarda örnəyin hər birini gözdən keçirmək, saf-çürük etmək, onları kitab (toplu) üçün tərtib etmək, köhnə, dialekt və alınma sözlərə lüğət hazırlamaq, şərhlər yazmaq asan iş sayıla bilməz.

Ötən əsrin 90-cı illərində, müstəqilliyin yeni qazanıldığı, keçid dövrü kimi səciyyələndirilən ilk vaxtlarda orta və ali məktəb dərsliklərinin bir çoxu ideoloji və metodoloji baxımdan köhnəlmiş durumda idi. Ədəbi irsə münasibət kommunist-bolşevik ideologiyasından, imperialist yanaşma metodlarından tam uzaqlaşa bilməmiş, ədəbiyyat tariximizdə ağ - yazılmamış səhifələr qalmaqda idi. Bu məsələni ilk duyan və düşünənlərdən biri Təyyar Salamoğlu oldu. Müəyyən boşluqları doldurmaq, ağ ləkələri azərbaycançılıq mövqeyindən yenidən yazmaq onun əsas məqsədlərindən birinə çevrildi. Təyyar müəllim 1998-ci ildə bu istiqamətdə çox maraqlı və vacib bir iş ortaya çıxardı. Onun elmi ictimaiyyətə və geniş oxucu kütləsinə təqdim etdiyi "Faciəli talelər (Azərbaycan mühacirət və repressiya şeirinə dair oçerklər)" (Bakı, "Elm", 1998, 300 səh.) kitabında ağır və məşəqqətli resressiya dövründən, qanlı rejim tərəfindən fiziki və mənəvi repressiyaya uğradılmış, özlərinin və ailə üzvlərinin bütün sosial hüquq və imkanları əlindən alınmış dörd görkəmli şairimizdən söz açılır. "Talesiz şairin taleyi" oçerkində Səməd Mənsur, "Repressiya məngənəsində" oçerkində Əhməd Cavad, "Proletar platformasından istiqlal mücadiləsinə" oçerkində Almas İldırım, "Dağılmış yurdumun şairi" oçerkində isə Ümgülsümün həyat və yaradıcılıqlarından, ona qədər heç kimin bəhs etmədiyi səciyyə və tərzdə bəhs edilirdi. Bu səciyyəli araşdırmalar o zaman yox səviyyəsində və yaxud çox az idi.

T.Salamoğlu ötüb gedən və yeni minillik qovşağında - XXI yüzilliyin astanasında milli roman janrı, ümumiyyətlə, milli nəsrimizlə bağlı tədqiqatlara start verir. Roman yaradıcılığı tariximizin ən məhsuldar, araşdırılıb öyrənilməsi çox vacib, ədəbiyyatşünaslığımız üçün aktual, maraqlı onilliklərindən biri olan, xarakter etibarilə digərlərindən seçilən 80-ci illərin iri həcmli nəsr təsərrüfatı onun tədqiq obyektinə çevrilir. Böyük zəhmət sərf edərək üzərində gərgin işlədiyi "80-ci illər Azərbaycan romanı: janr təkamülü" mövzusunda doktorluq dissertasiyasını yazır və 2007-ci ildə onu uğurla müdafiə edir. İstedadlı nəsr tədqiqatçısı romanla bağlı fundamental monoqrafik araşdırmalarını, onun nəticələrini "Müasir Azərbaycan romanının poetikası (XX əsrin 80-ci illəri)" (Bakı, "Elm", 2005, 280 səh.) və "Müasir Azərbaycan romanı: janr təkamülü (XX əsrin 80-ci illəri)" (Bakı, "Nafta Press", 2007, 153 səh.) adlı çox gərəkli kitablarında oxucuların ixtiyarına verir. Qeyd edək ki, kitablar elmi camiədə böyük maraq və rəğbətlə qarşılandı. Səbəb bu ki, tədqiqatçı müəllif 80-ci illərin roman yaradıcılığına tam yeni nəzərlə yanaşmış, qiymətli romanlarımızı, ona qədər heç kimin edə bilmədiyi milli ideoloji düşüncə ilə yeni rakursda təhlil süzgəcindən keçirərək, tam yeni fikirlər ortaya qoymuşdur.

Alim roman janrı ilə bağlı əsərlərində janrın poetikasından bəhs edərkən, müasir Azərbaycan romanının, əsasən mövzu aktuallığını önə çəkmiş, onlarda müasir həyatla bağlı mövzuların canlı və inandırıcı bədii həlli, çağdaş romanının tənqid pafosu, sosial-siyasi həyatın ziddiyyətlərinin romanda inikası, qəhrəmanların mənəvi-əxlaqi səciyyəsi, intellektual qəhrəman tipləri - kimi az işlənmiş məsələləri incələnmiş, eləcə də tarixi roman janrı və onun tipologiyası, spesifikası və problematikası, əsas ideya istiqamətləri, epik düşüncədə tarixi zaman və tarixi şəxsiyyətin müvazi olaraq real inikası kimi problemlərin elmi həllini özünəməxsus ustalıqla, analitik tərzdə yerinə yetirə bilmişdir. T.Salamoğlu milli roman yaradıcılığında nəzərə çarpan təkamül prosesini analitik təhlil üsulu ilə incələyərkən forma axtarışları məsələsini də unutmur, kompozisiya mürəkkəbliyi və süjetqurma üsulunun müxtəlifliyi məsələlərinə də diqqət yetirmişdir.

Əsas araşdırma sahəsi kimi üz tutduğu 80-ci ilər Azərbaycan romanlarında konsentrik süjet tipinin zənginləşdirilməsi ilə xarakterizə olunmanın mümkünlüyünü xatırladan Təyyar Salamoğlu xüsusi vurğulayır ki, "80-ci illər romanını janrın tarixində uğurlu süjet eksperimentləri ilə seçilən onillik kimi qiymətləndirmək olar" ("Müasir Azərbaycan romanı: janr təkamülü ("XX əsrin 80-ci illəri" Bakı, 2007, səh.10). 80-ci illərə aid milli roman təsərrüfatını istisnasız gözdən keçirib araşdıran Təyyar müəllim istedadlı nasirlərin daha çox həyatı inikasın yeni üsullarından - sinkretik və dioloji (polifonik) roman üslubundan faydalandığını da diqqətə çatdırır.

Elmi fəaliyyətinin intensiv və şaxəli şəkildə davam etdiyi sonrakı illərdə roman - nəsr tənqidi ilə davamlı məşğul olan T.Salamoğlu milli nəsrdə diqqət çəkən, hadisəyə çevrilə bilən bir sıra əsərlərə ayrıca münasibətini bildirmiş, səriştəli tənqidçi kimi onlar üzərinə fərqli rakurslardan aydınlıq yaradan işıq sala bilmişdir. O, diqqətini daha çox cəlb edən sənətkarların yaradıcılığı, onların ayrı-ayrı əsərləri ilə bağlı monoqrafiyalar yazmış, barələrində dövrü mətbuatda məqalə və resenziyalar dərc etdirmişdir. 20-25-ci il ərzində özümü "nüfuzlu romanşünas alim və tənqidçi" kimi tanıdan T.Salamoğlunun "İsmayıl Şıxlının bədii nəsri" (Bakı, "E.L." NPŞ MMC, 2014, 176 səh.), "Qarlı aşırım"dan keçən yollar" (Bakı, "Orxan" NPŞ MMC, 2016, 176 səh.), "Mir Cəlal nəsri və müasirlik" (Bakı, "Orxan" NPM, 2018, 136 səh.) kimi monoqrafiyaları, M.Hüseyn, İ.Əfəndiyev, Ə.Əylisli, Anar, Elçin və digər nasirlərin müəyyən əsərləri haqqında dövrü mətbuatda və elmi-ədəbi məcmuələrdə çap etdirdiyi, elmi-mədəni ictimaiyyətin rəğbətlə qarşıladığı araşdırma xarakterli çox saylı elmi və tənqidi məqalələri təsdiq etməkdədir.

T.Salamoğlu peşəkar tədqiqatçı ədəbiyyatşünas və güclü intellektə, müşahidə və mühakimə diapozonuna malik tənqidçidir. Təyyar müəllim, yaradıcılığına üz tutub, baş vurduğu sənətkarın yaradıcılığını ədəbiyyat tarixçiliyi konsepti, elmi-nəzəri və bədiilik prinsipləri ilə, səthi deyil, dərindən araşdırmaqla bərabər, onları mahir tənqidçi şəristəsi ilə gözəl şərh və güclü təhlil etmək bacarığına malik olan alimlərimizdəndir. Bu yerdə görkəmli tənqidçi, ədəbiyyatşünas Vaqif Yusiflinin T.Salamoğlu haqqındakı bir qeydi yada düşür: "Təyyar həm müəllimlik edir, mətbuatda öz elmi tənqidi yazılarıyla müntəzəm görünür. Onu bir tənqidçi-ədəbiyyatşünas kimi səciyyələndirməli olsam... deyərdim ki, bu adam ədəbiyyat üçün yaranıb. Bu adam tənqidçi missiyası ilə ədəbiyyatşünaslıq missiyasını yaradıcılığında birləşdirən tək-tük alimlərimizdəndir" (V.Yusifli. "İsmayıl Şıxlı haqqında yeni söz" T.Salamoğlu. İsmaylı Şıxlının bədii nəsri, Bakı, 2014, -səh.9-10)

T.Salamoğlu konkret bir yazıçı və ya romanlarla bağlı, məsələn yuxarıda adı çəkilən monoqrafik əsərlərində, romanlardakı mövzu və mahiyyətə tamamilə yeni - ona qədər az müşahidə olunan, daha çox gerçəkliyə fraqmentar şəkildə toxunulan, sosrealist, siyasi təmayüldən yaxa qurtara bilməyən, sinfi mənafeyin qabardılması tendensiyalı deyil, tam olaraq milli (həmdə bəşəri), sosial-siyasi mövqedən yanaşıb, onları müstəqil təhlil konsepsiyası ortaya qoyur.

T.Salamoğlunun apardığı tədqiqatlar, yazdığı bütün əsərlər - istər irihəcmli monoqrafiya olsun, istər məqalə, istərsə də dərs vəsaiti, onların hər biri azərbaycançılıq mövqeyindən qələmə alınmışdır. Şair və istedadlı tənqidçi Əli Rza Xələfli alim haqqında, onun bu anlamda diqqət çəkən əsərləri haqqında yazır: "Mən Təyyar Salamoğlunun üç əsərini ədəbi-trilogiya hesab edirəm: "İsmayıl Şıxlının bədii nəsri", "Qarlı aşırımdan keçən yollar" və "M.Ə.Sabirin milli intibah idealı". Bu əsərləri bir-birinə bağlayan əlamətlər, əlaqələr, mahiyyət, məzmun davamlılığı, obyektə yanaşma tərzi və s. çoxdur. Və hər üç əsərdən professor Təyyar Salamoğlunun azərbaycançılıq idealı qızıl xətlə keçir" (Ə.Xələfli. Tənqidçinin azadlıq idealı. Bakı, 2016, (336 səh.), səh.18). Biz alimin adı çəkilən bu əsərləri sırasına "Mir Cəlal nəsri və müasirlik" kitabını da daxil edərdik.

Alim "İsmayıl Şıxlının bədii nəsri" kitabında böyük nasirin əsasən iki əsərini "Dəli Kür" və "Ölən dünyam" romanlarını bir daha tənqidi araşdırma müstəvisinə çıxarmış, bu romanlar yazıçının nəzərdə tutduğu və alt qatda gizlətdiyi mətləblər haqqında doğru mövqedən yeni söz demək məqsədinə xidmət etmişdir. Monoqrafiyanın "Dəli Kür romanı: tarixi mövzuya yeni münasibət" və "Ölən dünyam"ın ölməz qəhrəmanları" bunu əyaniləşdirərək tənqidçinin obyektə fərqli baxışını ifadə edir. T.Salamoğlunun "Dəli Kür"lə bağlı gəldiyi qənaətlərdən biri budur ki, romanda "çarimzmin Göytəpə kəndinə və kəndin sakinlərinə münasibəti bütövlükdə Azərbaycana, Azərbaycan xalqına münasibəti kimi mənalanır". Tədqiqatçıya görə - İ.Şıxlını romanda narahat edən məsələ budur ki, rus imperiyasının imperialist ambisiyaları XIX yüzilliklər və XX əsrin ilk onilliklərində olduğu kimi, sovetlər dönəmində də xalqları yeni bəlalara düçar etmiş, yazıçının çatdırmaq istədiyi kimi, milli istiqlalı boğmaq cəhdləri yeni formada meydana çıxmışdır. 80-90-cı illər hadisələri, törədilən ixtişaşlar fikrin doğruluğunu təsdiqləyir.

"Ölən dünyam" romanına münasibətdə də alimin ortaya çıxartdığı qənaətlərin yeni və təkrarsız olduğunu qeyd edə bilərik. Məsələn, monoqrafiyadan bu romanla bağlı aldığımız aşağıdakı fikir əsərin ideyasının açılmasına, doğru qavranılmasına ciddi kömək etməklə heç bir mübahisə doğurmur: Romandakı "hər epizod, hər təsvir, təfsilat və detal, obraz insan xəyalını çəkib uzaqlara aparır, onun düşüncəsinin alt və üst qatlarını oyadır, bu romanda da milli ideologiyamızı milli tarixi dəyərlər istiqamətində formalaşdırmağa stimul verən çox mətləblər var. Əsərin müasirliyini və deməli, yaşarılığını şərtləndirən keyfiyyətlərdən biri də budur" (T.Salamoğlu. "İsmayıl Şıxlının bədii nəsri". -səh.152).

*(Davamı 5-ci səhifədə)*

# BİR ALİMİN HƏYATINDAN FRAQMENTLƏR, YAXUD ƏDƏBİYYATŞÜNASLIĞIMIZIN TƏYYAR SALAMOĞLU FENOMENİ

*(Əvvəli 4-cü səhifədə)*

T.Salamoğlunun aktuallığı ilə diqqət çəkib maraq doğuran, romanın ideya - məzmun məsələsi ilə əlaqədar yeni baxış sərgiləyən tədqiqatlarından biri də “Qarlı aşırım”dan keçən yollar” əsəridir. Bildiyimiz qədər, 60-70-ci illər Azərbaycan nəsrində “ədəbi hadisə kimi meydana çıxan” Fərman Kərimzadənin “Qarlı aşırım” romanı haqqında bir sıra tənqidi və ədəbiyyatşünaslıq mövqeyindən yazılar yazılmış, roman tənqid tərəfindən fərqli rakurslardan az-çox təhlil edilib dəyərləndirilmişdir. Lakin romanın hələ də açılmamış, doğru qavranılmamış qatları, toxunulmamış gizli nöqtələri qalmaqda idi. Təyyar müəllim bunları mövzuya yaxından bələd olan bir tənqidçi hissiyyatı ilə duymuş, roman və ona aid tənqiddə yer almış müxtəlif səciyyəli yanaşmalarla əlaqədar öz orijinal mülahizələrini təqdim etmişdir. Alim ondan əvvəl deyilmiş, romanın əsas mahiyyətini aydınlaşdırmağa xidmət edən N.Cəfərov, X.Əlimirzəyev, A.Hüseynov, A.Əfəndiyev, Y.Qarayev və digər tənqidçilərin müəyyən fikirlərini təqdir edir və öz münasibətini, romanla bağlı düşüncələrini ortaya qoyurdu. Məsələn, T.Salamoğlu qeyd edir ki, “70-ci illər tənqidi Kərbəlayi obrazını Qəmlo obrazı ilə eyni müstəvidə təhlil etməyə üstünlük verir”. “Lakin 80-ci illər tənqidi məsələni birmənalı sinfi müstəvidə dəyərləndirməkdən çəkinir. 70-ci illərin tənqidində millilik obraza vurulan “naxış” statusunda çıxış edirsə, 80-ci illərdə tənqid obrazı milli xarakterində görür, lakin sinfiliyi ona çalaq etmək məcburiyyətində qalır” (T.Salamoğlu. “Qarlı aşırım”dan keçən yollar. Bakı, 2016, səh.103). Tənqidçinin: “80-ci illər tənqidinin diqqətəlayiq cəhətlərindən biri budur ki, o, Kərbəlayının xarakter baxımından Qəmlo ilə yox, Abbasqulu bəylə eyni müstəvidə təhlilə cəlb edir, “(səh.103) - qənaətinə gətirən müşahidəsi tam doğru olmaqla mübahisə doğurmur.

T.Salamoğlu monoqrafiyanın ilk fəslində “Qarlı aşırım” və tənqid” problemini qoyub, şəxsi mühakiməsi ilə həll edirsə, digər fəsildə “Qarlı aşırım”ın bədii mətn həqiqətlərini çözüb üzə çıxarmağa çalışaraq əsas məqsədinə nail olmuşdur. “Eposdan romana doğru” adlandırdığı üçüncü fəsildə müəllif “Qarlı aşırım” romanı ilə milli dastan düşüncəmiz, xüsusilə də “Dədə Qorqud” arasında mövcud ideya yaxınlığı, qəhrəman obrazların taleləri arasındakı paralellər çözülür. Təyyar müəllim üzə çıxardığı paralellər sayəsində doğru hesab etdiyimiz belə bir qənaətə gəlir ki, “Qarlı aşırım” Azərbaycan eposunun bətnindən sıyrılmış bir romandır (səh.130). Lakin, alim bunu da doğru qeyd edir ki, “Eposdan gələn roman” heç də eposun roman variantı deyil” (səh.168). Abbasqulu bəylə Beyrək, Kəhərlə Boz ayğır arasında semantik bağlılığı görənlərdən biri kimi T.Salamoğlunun da düşüncəsi belədir: “Eposdan gələn roman” etnik yaddaşa bağlılıq deməkdir; çağdaş insanın düşüncəsində etnik yaddaşın bərpasına edilən səydir. “Qarlı aşırım”da Abbasqulu bəy uzaq tarixin nişanı olan Beyrəyin, Kəhər Boz ayğırın taleyini yaşayır” (səh.168).

XX əsr Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri, olduqca aktual və oxucu marağına səbəb olan roman və hekayələr müəllifi, sovetlər dönəmində ədəbi tənqidin birmənalı yanaşmadığı, özünəməxsus orijinal üslubu ilə T.Salamoğlunun da tənqidçi diqqətini cəlb etmiş yazıçılarımızdan biri Mir Cəlal Paşayevdir. Ədəbiyyata şeirlə gələn M.Cəlal hiss və duyğunun tələbi ilə sonradan nəsrə keçmiş, istəklərinə cavabı orada taparaq oçerk və hekayələrlə yaradıcılığını davam etdirmişdir. Təsadüfi deyil ki, nasir müasir ədəbiyyatımızın hekayə ustalarından biri sayılır. Roman sənətkarlığında da çox böyük uğur qazanan ədib milli ədəbi xəzinəmizə “Dirilən adam”, “Bir gəncin manifesti”, “Açıq kitab”, “Yaşıdlarım”, “Təzə şəhər”, “Yolumuz hayanadır” kimi romanlar bəxş etmişdir. Yazıçının birinci üç romanı daha çox uğur qazanmış, əldən-ələ gəzmiş, oxucular tərəfindən sevilmişdir. T.Salamoğlunun sözləri ilə desək: “Azərbaycanlılar üçün Mir Cəlal, öncə, duzlu-məzəli, satirik-yumoristik və eyni zamanda həyatın ən müxtəlif problemlərinə ciddi münasibət ifadə edən hekayələr müəllifidir. Sonra Azərbaycan vətəndaşının təsəvvüründə oxunaqlı, şirin bir təhkiyəyə malik romanlar müəllifi olan Mir Cəlal obrazı dolğunlaşır. (T.Salamoğlu. “Mir Cəlal nəsrinə müasirlik”, Bakı, 2018, səh.25)

T.Salamoğlunun “Mir Cəlal nəsri və müasirlik” kitabı yazıçının əsasən üç romanı - “Dirilən adam”, “Bir gəncin manifesti” və “”Açıq kitab” əsərlərinə həsr olunmuş tədqiqatların birləşməsindən ibarətdir. Müəllif kitabda yer alan “Bizim də zoşşenkolarımız olubmu?” - yazısında sovet rejiminin ədəbiyyat siyasətini kəskin ifadə edən məlum 1946 və 1948-ci il qərarlarını sərfnəzər edib mövcud cəmiyyətə tənqidi yanaşan, əsərlərində yalan ideallığı deyil, acı reallığı əks etdirən, o dövr üçün disident hesab edilən yazıçılar sırasında yer almış Mir Cəlaldan, özəlliklə onun “Açıq kitab” romanından söz açılır. Sovet dövrü tənqidini gözdən keçirən Təyyar müəllim haqlı olaraq qeyd edir ki, “ Mir Cəlalın öz romanlarında, xüsusən “Bir gəncin manifesti” və “Açıq kitab”da zamanın siyasətinə müxalif mövqeyi, ... antirejim əhvali-ruhiyyəsi və düşüncəsi elmi analiz predmeti olmayıb” (səh.33). Bu məsələni öz yazısının əsas predmetinə çevirən T.Salamoğlu roman tədqiqatçılarının və tənqidin diqqətini bu vacib nöqtəyə yönəldərək deyir: “... Anna Axmatovaların, M.Zoşşenkoların yaradıcılığında müşahidə olunan milli və ümumbəşəri həqiqətlərin, antisovet düşüncənin xüsusən Mir Cəlalın yaradıcılığında - “Açıq kitab”da, hətta dövrün ədəbi tənqidinin ümumən təqdir etdiyi “Bir gəncin manifesti”ndə də müşahidə etməyin mümkünlüyünü düşünmək lazım gəlir” (səh.42).

Əsərləri ilə dərindən tanış olduqda oxucuda, həqiqətən, bu qənaət formalaşır ki, Mir Cəlalın tarixi-siyasi mövzuda qələmə aldığı romanlarında yazıçı qayəsi, onun sənətkar kredosu dövrün və rejimin diqtəsinə tabe olub ideoloji prinsipləri yox, gerçək həyatı, sıravi insan taleyini bədii planda əks etdirməkdən ibarət olmuşdur. T.Salamoğlu bu konsepsiyanı bir müdrik tənqidçi kimi kitabındakı “Balzak realizmi ilə sosrealizm arasında “Dirilən adam”, “Bir gəncin manifesti” - pritçalar romanı” və “Açıq kitab”ın açılmamış sirləri” yazılarında da müdafiə etmiş və böyük yazıçımız Mir Cəlal yaradıcılığı ilə bağlı deyilməmiş, açılmamış gizlinləri aça bilməmişdir. Bu yerdə görkəmli tənqidçimiz Vaqif Yusiflinin Təyyar müəllimlə bağlı qeydləri yada düşür. “... Müasir Azərbaycan ədəbiyyatşünaslığı elmində Təyyar Salamoğlunun obrazı aydın görünməkdədir. Onun yazı tərzi qəti müəyyənləşib. O, hansı dövrə müraciət edirsə, öz fərqli baxışlarını ortaya qoya bilir ki, bu da əsas şərtdir. Ədəbiyyatşünas obrazı ilə yanaşı, onun tənqidçi üslubu da mövcuddur. Mən onu, əsasən, nəsr əsərlərini təhlil edən bir tənqidçi kimi tanıyıram” (V.Yusifli. İsmayıl Şıxlı haqqında yeni söz (T.Salamoğlu. İsmayıl Şıxlının bədii nəsri, səh.9).

T.Salamoğlu geniş yaradıcılıq diapozonuna malik ədəbiyyatşünas, nəzəriyyəçi, ədəbiyyat tarixçisi kimi fəaliyyət göstərən alim, eyni zamanda istedadlı ədəbi tənqidçidir. Ədəbiyyatşünaslıq elminin bütün sahələrinə mükəmməliklə bələd olan alimin bir sıra kitabları onun çoxşaxəli elmi yaradıcılıq fəaliyyətini əyani olaraq əks etdirən sanballı elmi və tənqidi yaradıcılıq məhsullarıdır. “Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar” (məqalələr toplusu) (Bakı: “E.L.” Nəşriyyat və poliqrafiya şirkəti MMC, 2009, 216 səh), “Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri” (Monoqrafiya və ədəbi məqalələr) (I nəşr “Səda” nəşriyyatı; II nəşr “E.L” NPŞMMC, 2009, 480 səh.), “Azərbaycan ədəbiyyatının müasir problemləri”. Elmi-nəzəri və ədəbi-tənqidi məqalələr (Bakı: “E.L” NPŞ MMC, 2014, 512 səh.), “Azərbaycan ədəbiyyatı. Mübahisələr və həqiqətlər” (Bakı, “Orxan” NPŞ MMC, 2016, 320 səh.) və s. alimin elmi və ədəbi-tənqidi təfəkkürünü bəyan edən qiymətli kitablardır.

Professorun “Tarixi çağdaş ədəbi prosesə dair araşdırmalar” (Bakı, 2009) kitabının “Ədəbiyyat tarixi məsələləri” bölməsində İ.Şıxlının “Dəli Kür” və “Ölən dünyam”, İ.Hüseynovun “İdeal” romanlarının indiyə qədər az toxunulmuş, müstəqillik dövrü oxucusu üçün fərqli konsepsiyası ilə şərhi vacib olan cəhətlər, “Ədəbi tənqid tarixi” adlanan bölmədə M.F.Axundovun, F.Köçərlinin, Ə.Hüseynzadənin, A.Səhhət, H.-Cavid, A.Şaiq kimi romantiklərin dövrü ədəbi prosesə münasibətlərini ifadə edən düşüncələrinin təhlili “çağdaş ədəbi proses” bölməsində B.Nəbiyevin “Didərgin şair” (A.İldırım haqqında), “Əhməd Cavad”, V.Sultanlının “Azərbaycan mühacirət ədəbiyyatı” monoqrafiyaları ilə bağlı resenziyalar yer alır. Təyyar müəllim resenziya tipli yazılarında bir qayda olaraq, olduqca obyektiv tənqidi dəyərləndirmə aparır, yersiz tərif və mədhiyyəçilikdən uzaq olur.

T.Salamoğlunun “Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri”, “Azərbaycan ədəbiyyatının müasir problemləri”, “Azərbaycan ədəbiyyatı: mübahisələr və həqiqətlər” adlı irihəcmli kitablarında müasir, o cümlədən müstəqillik dövrü milli poeziya, nəsr və dramaturgiya sahələrində önəmli yer tutan sənətkarların yaradıcılıqları ədəbi-tənqidi təhlillər konsepsiyası ilə araşdırılır, onlara həsr edilən çoxsaylı məqalələrdə peşəkar tənqidçi qiymətini alır. Adı çəkilən, habelə bu tipli digər kitablarında alimin dövrü mətbuatda, özəlliklə, ən nüfuzlu ədəbi orqanlar “Azərbaycan”, “Ulduz” jurnallarında “Ədəbiyyat qəzeti”, “Kredo” və “525-ci qəzet”də və s. çıxan fundamental məqalələri toplanmışdır.

Təyyar müəllim bütün yazılarında olduğu kimi adıçəkilən kitablarda cəm edilmiş məqalələrində obyektiv mövqe sərgiləyir, tərifəlayiq tərəfləri təqdir edir, nöqsanları da tənqidçi etikası ilə tənqid edir. T.Salamoğlu ədəbi-tənqidi polemikaya olduqca meylli alimdir. O heç bir əsnada polemikadan qorxmur. Yersiz, əmin olmadığı məsələlərdə polemikaya girmir. Görkəmli ədəbiyyatşünas alimimiz, akademik Bəkir Nəbiyevin sözləri ilə ifadə etsək; “Polemika T.Salamoğlunun konseptual mövqeyindədir; elmi problemləri özünəməxsus düşüncə stixiyası ilə həll etmək bacarığındadır” (Sitat T.Salamoğlu və M.Dövlətzadənin “Qarlı aşırımın tənqid variantları” kitabından götürülmüşdür: səh.35). T.Salamoğlunun polemika ilə bağlı öz mövqeyi də diqqətəsayandır: “... Hər bir alimin polemikaya girmək haqqı var. Elmi inkişaf etdirməyin yolu polemikadan keçir. Polemika aparmaq üçün alimin elmi-nəzəri təfəkkürü olmalıdır”. (T.Salamoğlu. “Azərbaycan ədəbiyyatı: mübahisələr, həqiqətlər”. Bakı, 2016 (320 səh.), səh.43).

T.Salamoğlu Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorudur. Birbaşa təhsillə, milli ədəbiyyatımızın, ədəbiyyatşünaslıq elminin bir sıra nəzəri məsələlərini əhatələyən fənlərin tədrisi ilə məşğuldur. Tələbələrinə elmin sirlərini ən yüksək səviyyədə öyrədən müəllimdir. Alim həm də bir çox dərslik, dərs vəsaiti və fənn proqramlarının müəllifidir. Alim-pedaqoqun “Müasir Azərbaycan ədəbiyyatı” (Bakı, 2012, 314 səh.), “Ədəbi tənqid tarixinə dair portret oçerklər” (Bakı, 2013, 332 səh.), “XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri” (Bakı, “Elm və təhsil”, 664 səh.), “Ədəbiyyat və siyasət” (Bakı. “Elm və təhsil”, 160 səh.) kitabları tələbələrin stolüstü kitabıdır. Son illər professor ciddi ehtiyacı, yeni keçilən bir fənnin dərsliyinin olmamasını nəzərə alıb çox vacib bir dərslik üzərində çalışmalarını tamamlayaraq “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” dərsliyini çap etdirərək oxucuların ixtiyarına vermiş, öz yeni əsəri ilə Respublika ali məktəblərinin filoloji fakültələrində təhsil alan tələbələri bir daha sevindirmişdir.

Tələbələri Təyyar müəllimi çox sevir. Elminə və şəxsiyyətinə rəğbət bəsləyirlər. Çünki onun istər tədris prosesində, istərsə də “elmi və ədəbi tənqidi yazılarında əhatəli nəzəri biliklə bədii materiala analitik elmi nüfuz uğurlu sintez yaradır” (Bəkir Nəbiyev. Tədqiqatın təzəliyi (T.Salamoğlu. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Səh.3-24; səh.21).

Bu bahar Təyyar müəllimin 65 yaşı tamam olur. Lakin o, bu gün də bir gənclik eşqi və həvəsi ilə auditoriyada, kürsü arxasında dayanıb mühazirələr oxuyur, yazı masası arxasında əyləşərək dəyərli, elmi və tənqidi əsərlər yaradır. Biz çox məhsuldar bir alim və pedaqoq ömrü yaşamış dostumuza möhkəm can sağlığı və yaradıcılıq uğurları arzulayırıq!

***2025***